# Məzəmməti təvazökarlıqla qəbul et

## Davud və Bat-Şeva. II hissə

**Təlimat.** Bu tapşırığı sakit şəraitdə yerinə yetir. Ayələri oxuyarkən özünü hadisələrin iştirakçısı kimi təsəvvür et. Hadisələri xəyalında canlandır. Səsləri eşitməyə və baş qəhrəmanların keçirdiyi hissləri duymağa çalış.

**Baş qəhrəmanlar:** Davud, Natan peyğəmbər

**Qısa icmal:** Davud ciddi günahına görə cəzalandırılır, amma tutduğu pis əməllərinin acı nəticələri ondan yan keçmir.

### 1 BU EPİZODU ARAŞDIR. 2 ŞAMUEL 12:1—24 AYƏLƏRİNİ OXU.

Natanın ovqatını necə təsvir edərdin?

Natan kasıb kişi və quzu məsəlini çəkəndə, səncə, onun səs tonu necə idi?

Necə düşünürsən, Natan məsəlin məğzini açıqlayanda onun səs tonu necə dəyişir? (7—9-dək ayələr.)

### 2 DAHA DƏRİNDƏN ARAŞDIR.

Nəyə görə demək olar ki, Natan üçün Davudla üz-üzə gəlmək o qədər də asan deyildi?

Səncə, nəyə görə Natan Davuda məhz bu məsəli çəkdi?

Natan Davudun ədalət hissinə necə xitab etdi və nəyə görə bu sadəcə onu günahını etiraf etməyə məcbur etməkdən daha təsirli üsul idi?

Adama elə gələ bilər ki, Yehova Davudu dərhal bağışladı. (*13-cü ayəni yenidən oxu.*) Amma, bizdən fərqli olaraq, Yehova insanlarda nəyi görməyə qadirdir?

Natanın sözlərinə əsasən, pis əməllərinin acı nəticələri Davuddan yan keçməyəcəkdi. Səncə, nəyə görə bu, ədalətli idi? (*10—12, 14 ayələri yenidən oxu.*)



www.jw.org © 2013 Watch Tower Bible and Tract Society of Pennsylvania

## 3 ÖYRƏNDİKLƏRİNİ TƏTBİQ ET.

Aşağıdakılar haqda öyrəndiklərini yaz.

Təvazökarlığın vacibliyi haqda. ____________________

____________________________________________

Günahın acı nəticələri haqda. ____________________

____________________________________________

Yehovanın mərhəməti haqda. ____________________

____________________________________________

## 4 ÖZÜNDƏN SORUŞ:

Mənə nə vaxtsa məsləhət verilib və ya məzəmmət edilib? ____________________

____________________________________________

Məzəmməti düzgün qəbul etmək üçün nə etməliyəm? ____________________

____________________________________________

Nəyə görə məsləhət və ya məzəmmət Yehovanın məhəbbətinin təzahürüdür? (İPUCU: İbranilərə 12:5, 6 ayələrini oxu.)

____________________________________________

____________________________________________

Bu hadisədə mənim üçün ən vacib ibrət dərsi hansıdır və nəyə görə? ____________________

____________________________________________

____________________________________________

**Tapşırıq.** Tutaq ki, Davud məzəmməti rədd etdi və hətta Natanı cəzalandırmaq istədi. Səncə, belə olduğu halda, bu məsələnin axırı necə olacaqdı? Bunu yaz. Necə düşünürsən, bu, Yehovanın Davud haqda çıxardığı hökmə necəsə təsir edəcəkdi?



Bu PDF-i www.jw.org/az-latn saytından yüklə



www.jw.org © 2013 Watch Tower Bible and Tract Society of Pennsylvania